AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
NİZAMİ GƏNCƏVİ ADINA
MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ

# RİSALƏ

*Elmi araşdırmalar jurnalı*

# 16



**Bakı – "Elm və təhsil" – 2019**

**Azərbaycan Milli Elmlər Akademiyası**
**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**Elmi Şurasının 15 mart 2019-cu il tarixli (protokol № 3)**
**qərarı ilə çap olunur.**

*Baş redaktor:*
**Rafael Hüseynov,**
***akademik***

**Redaksiya heyəti:**
**Kamil Allahyarov, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Xatirə Bəşirli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Şəfəq Əlibəyli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Aida Qasımova, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Özgen Felek, filologiya üzrə elmlər doktoru, professor, Yel Universiteti, ABŞ**
**Mbaye Lo, filologiya üzrə elmlər doktoru, professor, Dyuk Universiteti, ABŞ**
**Hendrik Boeşoten, filologiya üzrə elmlər doktoru, professor, Maynz Universiteti, Almaniya**
**Nataliya Çalisova, filologiya üzrə elmlər doktoru, professor, Rusiya Dövlət Humanitar Universiteti, Rusiya Federasiyası**
**Zemfira Səfərova, akademik, AMEA Memarlıq və İncəsənət İnstitutu, Azərbaycan**
**Cəfər Qiyasi, AMEA-nın müxbir üzvü, Azərbaycan**
**Məryəm Əlizadə, sənətşünaslıq doktoru, professor, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan**

**Risalə. Elmi araşdırmalar jurnalı. *№1.2019(16)***
**Bakı, "Elm və təhsil" nəşriyyatı, 2019, 208 s.**

Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin beş topludan ibarət elmi-tədqiqat "Xəmsə"sinə ("Şərq" – Tərcümə toplusu, "Məclis" – Mərasimlər toplusu, "Xəzinə" – Kataloqlar toplusu, "Qaynaq" – Mənbələr toplusu) daxil olan "Risalə" – Elmi araşdırmalar jurnalının bu sayı akademik Rafael Hüseynovun rəhbəri olduğu gənc alimlərin məqalələrindən tərtib edilmişdir. Məqalə müəllifləri arasında elmlər doktorları, fəlsəfə doktorları da var, dissertasiya müdafiəsinə hazırlaşan cavan tədqiqatçılar da. Akademik Rafael Hüseynovun elmi məktəbinin təmsilçiləri olan bu araşdırıcılar Azərbaycan klassik və müasir ədəbiyyatının bir sıra aktual və az öyrənilmiş problemlərinə yeni görüş bucağından yanaşırlar.

**© AMEA Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**© 2019**

**UOT 821.512.162.**

**Tariyel QƏNİ**
**Filologiya üzrə fəlsəfə doktoru, dosent**

AMEA Nizami Gəncəvi adına Milli
Azərbaycan Ədəbiyyatı Muzeyinin doktorantı
**qenitariel@mail.ru**

# EPOS YARADICILIĞI VƏ MİLLİ EPİK ƏNƏNƏNİN ÜMUMİ ASPEKTLƏRİ
## (Şirvan dastanları əsasında)

**Açar sözlər:** *Şirvan folklor mühiti, dastan yaradıcılığı, epos ənənəsi, aşıq repertuarı, dastan strukturu*

**Key words:** *folklore environment of Shirvan, researching of the saga, the tradition of the epos, the ashug repertoire, the structure of the saga*

**Ключевые слова:** *фольклорная среда Ширвана, творчество саги, традиция эпоса, репертуар ашуга, структура саги*

**Giriş.** Şirvan folklor mühitinin zənginliyində dastanların funksional xarakteri onun ümumi xəttinin epos müstəvisində təhlilini aktuallaşdırır. Çünki eposun bir mədəniyyət hadisəsi olaraq ehtiva etdiyi məzmun məhəlli, milli və qlobal aspektləri ilə son dərəcə mükəmməl bir möhtəşəmliyə bağlanır. Müxtəlif səviyyələrdə aparılan təhlillər lokal mənzərənin tipoloji müstəvidə tədqiqini də faktlaşdırır. Şirvan aşıqlarının repertuarında yüzillər boyu işləklik qazanmış dastan nümunələrinin spesifik özəlliklərinin aydınlaşdırılması, müqayisəli təhlilə gətirilməsi milli epik ənənənin arxaik məzmununu və tarixi-mədəni mənzərəsini aydınlaşdırmaq üçün xüsusi aktuallıq kəsb edir.

**Milli epik ənənə və Şirvan dastan yaradıcılığı.** Ədəbiyyatda klassik epik ənənə və Şirvan epos yaradıcılığı kontekstində araşdırılmalı problemlərdən biri eposun milli epik ənənə sistemi olaraq öyrənilməsidir. Folklor milli özünüifadənin ən mükəmməl hadisəsi olaraq geniş mahiyyətli mədəniyyət hadisəsidir. Burada etnosun yaddaş, tarix, mədəniyyət, milli-əxlaqi dəyərlər və s. nə varsa da hamısının cəmi (topluluğu) anlamında mükəmməl bir sistem qəlibləşir. Onu da əlavə edək ki, bu zənginlikdə təkcə mənəvi mədəniyyət sisteminin genetik mənzərəsi və tarixi prosesi kodlaşmır, həm də bədii düşüncənin kanonik sistemi, ifadəlilik modelləri özünü göstərir. Mifdən eposa, oradan dastana və yazılı epik mühitə gələn inkişaf boyartımında etnosun bədii-estetik təfəkkürünün alt və üst şüur qatlarında olanlarla səciyyələnir. Şirvan epik mühiti timsalında baş verənlər, prosesin tarixi dinamikası öz potensiyası ilə mühitin coğrafiyasında gedən proseslərin, yaşananların mədəni və tarixi laylarını aydınlaşdırmağa imkan verir. “Son dövr Azərbaycan folklorşünaslığında bir-birindən maraqlı tədqiqat əsərləri yaranmaqdadır. Onların mühüm bir hissəsini regional folklorşünaslığın öyrənilməsi təşkil edir. Belə bir addımın atılmasının özünün kifayət qədər müsbət cəhətləri var. Ən birincisi, bu regionun spesifikasını, insanların qayğılarını, məişətini, adət-ənənəsini, keçib gəldiyi yolu öyrənmək anlamında mühüm dəyər kəsb edir. İkincisi, bütövlükdə Azərbaycan folklorunun ümumi mənzərəsi haqqında dolğun təsəvvür yaradır” [3, s. 270-271]. Epik ənənə

kontekstində aparılan müşahidələr şifahi və yazı örnəkləri kontekstində Şirvanın ciddi və həm də fundamental zənginliklə səciyyələndiyini düşünməyə əsas verir. Dastançılıq ənənəsində faktlaşan nümunələr, söyləyicilik repertuarında özünə yer alan epik zənginlik, yazı mühitində Xaqani Şirvanidən Ağa Məsih Şirvaniyə, Şakir Şirvaniyə və Məhcur Şirvaniyə qədər olanlar hamısı böyük bir layı və Azərbaycan epik mühitindəki prosesin fasiləsizliyini, informasiya və düşüncə axarının dinamikasını müəyyənləşdirir. "Koroğlunun Şirvan səfəri", "Şirvanlı Qəhrəman şah", "Adıgözəl və Aslan şah", "Şahzadə Qasım", "Seydi və Pəri", "Aşıq Ağəmməd və Məryəm" və s. kimi dastan nümunələri epik ənənənin axarını, arxetiplərin genetik sistemini ortaya qoyur.

Məlum olduğu kimi, "Oğuznamə" şifahi bədii yaradıcılıq hadisəsidir. Ona görə də orta əsrlərdə yazıya alınmış mətnlər şifahi ənənəyə münasibətdə klassifikasiya olunmalıdır. "Oğuznamə"nin şifahi ifası, poetik forması, eləcə də şifahi söz yaradıcılığının təbiəti haqqında biliklərə söykənib günümüzə çatmış mətnlərin hansı üsulla ərsəyə gəldiyini müəyyənləşdirmək mümkündür. Elə bu prinsiplə də "Oğuznamə" mətnləri təsnif və təhlil olunur. Bu baxımdan orta əsrlərdə yazıya alınmış "Oğuznamə" mətnlərini aşağıdakı şəkildə təsnif etmək olar:

I. Təsvir üsulları ilə yaranmış müəllif mətnləri
II. Şifahi ifadan yazıya alınmış mətnlər
III. Tərtib üsulu ilə yaranmış mətnlər
IV. Epik ədəbiyyat" [6, s.180].

Bütün bu nümunələrin hamısında bu və ya digər dərəcədə epik mühiti əks etdirəcək kifayət qədər zəngin material vardır. Folklorşünas alimin oğuznamələr üzərində apardığı müşahidələr onun spesifikasını müəyyənləşdirmək baxımından xarakterik görünmür, burada həm də ənənənin mövcudluğunun ümumi sistemi müəyyənləşir. Çünki oğuznamələr öz möhtəşəmliyi, fundamental xarakteri ilə rəngarəng özünəməxsusluqları, təhkiyə nümunələrini ortaya qoymaqla epos təhkiyəsindən gələnlərin mahiyyəti ilə dolğunlaşır. Məsələn, Rəşidəddin və Əbülqazi mətni, Dəvadəri mətni, Adam Oleari mətni, Bayburlu Osman mətni və s. milli epik ənənənin "Kitabi-Dədə Qorqud"dan, "Manas"dan, "Maday-Kara"dan, "Alpamış"dan, Koblandıbatır"dan və s. (buraya "Bilqamıs" dastanını da əlavə etmək olar) gələn ənənənin ümumi xəttində olanlar kimi də diqqət yetirmək gərəyi yaradır. Çünki bu ənənə milli yaddaşın fundamental fakturasını sistemli şəkildə qorumaqla etnosun potensiyasını müəyyənləşdirir. Məsələn, F.Rəşidəddin "Oğuznamə"sindən bir epizoda diqqət yetirək: "Bu qış mövsümünü Dəclə çayının sahilində keçirdi. Bahar gəlincə Şam tərəfə yeridi və öz altı oğlunu mankala (qabaqca) göndərdi və özü də onların ardınca yola düşdü. Onun oğulları Rakkaya çatanda şəhərin görkəmli adamları onları qarşılamağa çıxdılar. Oğuz oğullarının ardınca gəldiyi üçün onlar bu adamları onun qulluğuna göndərdilər. Onlar Oğuzun qulluğuna gəldilər və Oğuz onları yaxşı qarşıladı. Şixnə təyin edib onları şəhərinə göndərdi. Oğuz bu ölkədə haraya gedirdisə, orada əhali öz istəyilə il olurdu. Təkcə türklərin Antak Şəhr adlandırdıqları və üç yüz altı qapısı olan Antakiya şəhəri tərslik edib müqavimət göstərdi. Nəticədə bir il vuruşdular və bir ildən sonra şəhəri aldılar.

Oğuz şəhərə girdi, qızıldan taxt qurub üzərində oturdu. Oğuz onunla gəlmiş doxsan minlik qoşunu, arvad-uşaqları ilə şəhərə yerləşdi.

Sonra Misir və Dəməşqə elçilər göndərib oraya gələcəyini bildirdi" [10, 24]. Göründüyü kimi, təsvir üsulu ilə yaranan bu mətn öz potensiyası ilə nə qədər fərdiliyi ehtiva etsə də, mahiyyətində daha əsaslı, ciddi potensiya ilə müəyyənləşəcək spesifikanı işarələyir.

**Epos milli epik ənənənin ən mükəmməl ifadə forması kimi.** Epos milli epik ənənənin ən mükəmməl forması kimi əcdad mifdən sonrakı dövrün mədəni prosesinin möhtəşəmlik faktıdır. Türk xalqlarının zəngin bədii mühiti onun genetikasını, janr səviyyəsini aydınlaşdırmaq üçün genişimkanlılığı ilə seçilir. Çünki burada təkcə etnosun gerçəklik haqqında təsəvvürləri və onun ümumi sistemi özünün ifadəsini tapmır, həm də onu gerçəkləşdirən sintaqmatik model boy göstərir. Folklorşünas Azad Nəbiyev prosesin axarını tipoloji müstəviyə gətirərək vurğulayır: "Lirik və dramatik üslubların meydana gəldiyi, hər iki üslub üzrə janrlaşma yaradıcılıq prosesinin davam etdiyi tarixi kəsimdə eyni qəbilə, tayfa insan qrupları içərisində təhkiyəçiliyə əsaslanan epik üslub yaranmağa başladı.

Canlı danışıq faktına, aydın qarşılıqlı ünsiyyətə əsaslanan təhkiyəçilik insanın özünün təkamülü ilə bağlı uzun davam edən maraqlı və canlı yaradıcılıq prosesi idi. Burada söz sistemlərinin düzümü sadə, sırası ardıcıl, mənası aydın, tutumu konkret idi. Fikrin ifadəsi lirik və epik üslublardan fərqli olaraq daha ifadəli, tez anlaşılan və başadüşülən idi" [9, s.431]. Mifdən bu yana və bəlkə də daha dərinlərdən gələn bu proses elə insanın özünün təkamülü ilə inkişaf keçirmiş və eposda bir bütöv olaraq modelləşmişdir. Epik dünya modelinin yaranışı məhz tarixi proses kimi ciddi, həm də tədrici proses olaraq gerçəkliyə çevrilmişdir. Göründüyü kimi, öz mükəmməlliyi və imkanlılığı ilə "epik üslub həyatı dərketmənin geniş imkanlarını müəyyənləşdirdi, ağız ədəbiyyatında böyük və ənənəvi hadisə yaratdı. Bu hadisə şifahi sözü bədii həqiqətə, həyatın və onun geniş, zəngin mahiyyətini bədii obrazlarda əks etdirməyə gətirib çıxardı. Epik üslubun müxtəlif qəlib, ölçü və tələbləri ilə əlamətdar ən böyük icadı isə təhkiyəçiliyin tarixi yüksəlişi və onun ilkin yekunu və nəticəsi olan epos yaradıcılığının meydana çıxması ilə şərtləndi" [11, s.213]. Epik təhkiyənin milli epik ənənə modeli tarixi prosesin özündə insanın keçirdiyi inkişafla, prosesin müsbət gedişi ilə reallaşır. Bu proses özlüyündə epik təhkiyənin zənginləşmə və bədii düşüncənin son fazasında eposun ortaya çıxması ilə bütövləşir. "Kitabi-Dədə Qorqud", "Bilqamıs", "Manas", "Alpamış", "Koblandıbatır", "Canqar", "Corabatır" və s. kimi dastan nümunələri (Avropa məkanında olanlar da bura daxildir) həmin mükəmməl epik dünya modelinin faktı olaraq möhtəşəm düşüncə formalaşdırır. Etnosun gerçəklik haqqında təsəvvürlərini özündə ehtiva etməyə hesablanmış bu nümunələr sonrakı dövrlərdə, eləcə də yazı mühitinin formalaşdığı zamanlarda həmişə fundamental çəkisini və əsaslı qaynaq olaraq sintaqmatik səviyyəsini qoruyub saxlamışdır. "Bir gün Ulaş oğlu, Tulu quşun yavrusu, bizə miskin umudu, ümmət soyunun aslanı, Qaracuğun qaplanı, qonur atın əyası, xan Uruzun ağası, Bayındır xanın göygüsü, qalın Oğuzun dövləti, qalmış yigidin arxası Salur Qazan yerindən durmuşdu. Doxsan başlı ban evlərin qara yerin üzərində tikdirmişdi" [7, s.31]. Burada ozan söyləyiciliyinin parametrləri təhkiyənin mükəmməl bir formatını müəyyənləşdirir ki, bütünlükdə epos kontekstində olanların mətn tipi ilə sistemin özünə işıq tutur. Onu da əlavə edək ki, "Dədə Qorqud oğuznamələrinin hər biri müstəqil dastandır və onlar arasında xronoloji münasibət yoxdur. Boylar

arasında əlaqə bütün parametrlərilə epik sosium və ona məxsus olan ənənəvi qəhrəmanlar vasitəsilə qurulur. Oğuznamələr arasında ziddiyyət fikri onların "Kitab"dakı düzülüşündən doğur və boylar arasında bəzi xroniki ünsürlər də burada az rol oynamır. Yada salmaq istərdik ki, şifahi mətn yazıya alınmaq və ya kitabdan oxunmaq üçün yox, auditoriya qarşısında ifaya hesablanmış mətndir. Ozan məclisdən asılı olaraq müxtəlif sayda, müxtəlif ardıcıllıqla müxtəlif oğuznamələr söyləyə bilərdi. Ona görə də "Kitab"dakı boylar, onların sayı və ardıcıllığı çoxsaylı variantlardan biridir. Ozan bir məclisdə üç, başqa məclisdə beş oğuznamə söyləyə bilərdi və "Kitab"a düşən oğuznamələrdən heç biri söylənən oğuznamələr içərisində olmaya bilərdi" [6, s.205]. Dastanın qeyri-adi mətn tipi, onun poetik sistemi, gerçəklik haqqında yaratdığı təsəvvür və əvəzsiz sintaqmatik səviyyəsi bütün müstəvilərdə mövcud vəziyyətin də müəyyən sistem olaraq özünəməxsusluğunu düşünməyə əsas verir.

Epos milli düşüncənin bədii-estetik hadisəsi kimi bütünlükdə etnosun potensiyasını aydınlaşdırır. "Bilqamıs", "Manas", "Alpamış", "Koblandıbatır", "Canqar" və s. kimi nümunələr prosesin gedişini aydınlaşdırmaq üçün əsaslı faktura ilə səciyyələnir. Məsələnin aydınlığı üçün "Maday-Kara" dastanından bir parçaya diqqət yetirək.

Anlı şanlı Erlik bey
Yeri süpüren sakalı,
Semayi çizen bıyıklarıyla
Koyu kırın ayak seslerini duyup,
Kapısının önüme çıktı.

Anlı şanlı Kögüdey-Mergen,
Yüz çentikli kutsal yayını
Yüzüncü çentigine kadar gerdi,
Doksan kenarlı kanlı oku
Yeraltına fırlattı [12, s. 87].

Azərbaycan ədəbiyyatında klassik epik ənənənin dinamikası və poetik sistemi eposdan gələnlərə, türk epos ənənəsinin potensiyasına, xalqın tarixi yaddaşına, bədii mühitin mənəvi-estetik təsəvvürlərinə, bütövləşmiş və həm də qəlibləşmiş sisteminə dayanır. Şirvan mədəni mühitinin həm şifahi, həm də yazılı sferasında gedən proseslərin ümumi məzmunu, ozan ənənəsindən gələnlər, həyat təsəvvürləri, onun genetikası, dövlətçilik düşüncəsi, qəhrəmanlıq fəlsəfəsi və onun mahiyyətində olanlar hamısı bir bütöv olaraq eposun dinamikasını və həmin dinamikanın informasiya axarını ortaya qoyur. Ona görə epos mühitinin milli epik ənənənin ən mühüm hadisəsi olaraq etnosun gerçəklik haqqında təsəvvürlərini əks etdirmək kimi bir amala hesablandığını qeyd etməliyik. Epos milli epik ənənə kontekstində qəlibləşmiş söz modelidir, burada paradiqmatik, sintaqmatik, janr səviyyəsinin geniş məzmunu və funksiyası bütünlükdə etnosun bədii-estetik düşüncəsindən tutmuş həyat ideallarına, məqsəd və məramına qədər zənginliklə əhatələnir. "Maday-Kara"dan verdiyimiz nümunə ilə "Kitabi-Dədə Qorqud" dastanlarından verdiyimiz nümunənin etnosun gerçəklik haqqında epik təsəvvürlərini hansı səviyyədə əks etdirməsində elə də ciddi fərqlilik yoxdur. Paradiqmatik səviyyədə bunun gerçəkliyi hansı

müstəvidə və sistem daxilində reallaşdırması “Bilqamıs”dan, “Kitabi-Dədə Qorqud”dan “Koroğlu”ya qədər eyni səviyyədə görünür. Çünki etnosun həyat təsəvvürləri, onun dünyagörüşü birbaşa kulturoloji sistemi ilə bütövləşir və etnosun gerçəklik haqqında olan təsəvvürləri hansısa formada auditoriyaya çatdırmağa çalışır. Şaman, ozan və aşıq auditoriyasında tarixi proses olaraq bunlar müxtəlif səviyyələrdə reallaşmışdır. Onların sənət statusunda, bütünlükdə etnokulturoloji düşüncəsində hansı dərəcədə fərqlilik (məzmun və üsullar kontekstində) olmasından yana mahiyyət eynidi, daha doğrusu, gerçəkliyin mənimsədilməsi və ötürülməsi məqsədidir. Folklorşünas A.Nəbiyev vurğulayır ki, “epos yaradıcılığı əski dünyanın inkişaf etmiş sivil yüksəlişinin yaddaşda əks olunmuş bədii modeli idi. Bu modeldə bir çox estetik, mənəvi-əxlaqi, etik və hüquqi dəyərlər cəmləşmişdir. Hər bir etnosun tarixi bu mənəvi dəyərlərlə sıx bağlı olub onun sivil səviyyəsinin istiqamətləri və hüdudlarını ifadə edir. Bu düşüncə isə tarixən daha əvvəlki inkişaf qatları üçün ənənəvi olub bizim əcdadlarımızın özünəməxsus inkişaf istiqamətlərini əks etdirən qədim türk mifologiyasından bəhrələnir” [9, s.431]. Mifin əcdad funksiyası o qədər ecazkarlıq və etnosun təsəvvürlərini əhatə etmək məramı ilə yüklənir ki, onun ehtiva etdiyi məzmun sonrakı çağlarda eposda bir model olaraq daha geniş mahiyyətlə ortada görünür və eyni zamanda prosesin gedişinə istiqamət verir.

**Şirvan dastan mühiti və klassik yazılı epik ənənə.** Şirvan epos mühiti səviyyəsində aparılan təhlillər janr səviyyəsində eposun bütünlükdə epik janr modellərini ehtiva edə bilmək gücündə görünür. Son dövrün folklor mühitlərinin işlənməsi səviyyəsində görülən fundamental toplama və nəşr işləri janrlararası bağlantıların, mifdən eposa gəlişin və digər janr modellərinin məzmununu aydınlaşdırmaq üçün ciddi material verir. Azərbaycan klassik epik ənənəsinin zənginliyi onun söz modelinin zənginliyi olub, bütünlükdə tarixi, məişəti, dövlətçilik təsəvvürləri, dünyagörüşü ilə bağlı olanlarla səciyyələnir. Şirvan ədəbi-mədəni mühitinin araşdırıcısı S.Qəniyev vurğulayır: “Şirvan poeziyamızın beşiyi olan məkanlardandır. Xaqani Şirvani, Fələki Şirvani, İzzəddin Şirvani və daha qədimlərdən başlayan yolun hələ tarixin bizə daşıyıb gətirdiklərindən əlavə bəlkə də daha çox (hətta bir neçə dəfə çox) sənətkarları əsərləri ilə acınacaqlı aqibətlə üzləşmişlər. Çünki Azərbaycanımız həmişə müharibələrin meydanı olub, olmazın əzabları yaşayıb, ağır itkilərlə qarşılaşıbdı... Ona görə də başlıca və əsas olan kimi mədəniyyət tariximizin, xalqımızın keçib gəldiyi yolun zənginliyinin öyrənilməsi bir məqsəd olaraq həmişə qarşımızda durur” [8, s.9]. Təkcə onu demək kifayətdir ki, son dövrün ədəbi-nəzəri fikrinin müəyyənləşdirdiyinə görə, mənbələrdə Şirvanın 1250-dən çox sənətkarının adı vurğulanır. Bu ədiblərin ədəbi irsi mühitin keçib gəldiyi inkişaf yolunu, onun genetik sistemini, folklor stixiyasını, sənət dinamikasının məzmununu aydınlaşdırmağa əsas verir. Epos yaddaşı, onun verdiyi informasiya yazılı mühit üçün bütün dövrlərdə enerji qaynağı olmuşdur. Ona görə də epos türk bədii düşüncəsinin fundamental hadisəsi olaraq Şirvan mühiti üçün etnos gerçəklik haqqında epik təsəvvürlər sistemidir. Həmin təsəvvürlər sistemi isə sözlü mətndə, janr səviyyəsində reallaşmaqla mühitin bütöv bir sistemini və eposun milli epik ənənədə oynadığı funksional xarakteri aydınlaşdırır. Məsələn, “Yetim Aydın” dastanında bir epizoda diqqət yetirək: “Şah dağına dünya-aləm yoldu. Biçarə yetim çar-naçar razı olub həmən səmtə üz qoydu. Gethaget, gethaget, axırda yorulub əldən düşdü. Dincini almaqdan ötrü bir ulğun kolunun

altına uzandı. O qədər yorulmuşdu ki, elə uzanmağı ilə yuxuya getməyi bir oldu. Yuxuda şahlar şahı Həzrət Əli gəlib Aydının başı üstündə dayandı. Əlindəki abi-kövsər dolu badəni ona verib dedi:

– Al, bu badəni iç.

Aydın badəni başına çəkdi, şahlar şahı dedi:

– Bu badəynən mən sənə doxsan min sözü bəyan verdim. Sazda-sözdə qabağına çıxan olmayacaq" [5, s.332-333].

Epik təhkiyənin qəlibləşmiş modellərinin mahiyyətində gizlənən informasiya təkcə yaddaşı ehtiva etmir, onun həm də məzmununda poetik sistemin özünün formulları boy göstərir. Onların açılması mühit və bütünlükdə etnos səviyyəsində ən ümdə məsələlərdən biri olaraq qarşıda durur. Çünki arxaik yaddaş etnosun işarə sistemlərini, paradiqmatik səviyyəsini, etnokosmik universium olmasını bir bütöv olaraq düşünməyə əsas verir. Epos mühitində etnosun işarələndirilməsi təkcə hansısa müstəvidə getmir, əksinə, onun konsentrasiyası bütün sistem vahidlərini özündə cəmləşdirmək kimi məqsədə yüklənir. Şirvan mühitinin söz modeli olan dastan yüzillər boyu aşıqların repertuarında proyeksiyalaşdırdığı təsəvvürlə ənənənin və ümumiyyətlə, prosesin gedişini ortaya qoyur. Fundamental çəkisi ilə bütünlükdə etnosu, mühitin məzmununu, genaloji sistemini aydınlaşdırmaq, qoruyub saxlamaq və gələcəyə daşımaq kimi əsaslı məzmunla ortada görünür. Epos janr səciyyəsi baxımından digər janrların spesifik çalarlarını, struktur elementlərini özündə əks etdirmək gücü ilə səciyyələnir ki, bu da etnosun bədiilik potensiyasına bağlanır. Şirvan folklor mühitində yaşayan bir mətndə Şah dağı ilə bağlı verilən informasiyada qeyd olunur ki, "deyilənlərə görə, qədim əyyamda, uzaq keçmişlərdə hökmlü, hünərli, bir az da zəhmli bir şah gəlib bu yerlərə çatır. Başqa bir aləmə düşdüyünə görə heyrətə gəlir. Dağın əzəmətinə baxır, qürur keçirir. "Bu ki mən özüməm" deyib adını Şah dağı qoyur. Dağın ətəyində uyuyan düzə baxıb heyran olur, "lap özümə oxşayır, bu da mənim kimi saf ürəkli, geniş qəlblidir. Qoy bura da Şah düzü olsun" deyir [4, s.63]. Göründüyü kimi, əfsanə və rəvayət motivlərinin informasiya dinamikası etnosun tarixi yaddaşını, arxaik düşüncəsində olanları bir bütöv olaraq qoruyub saxlamaq və onun epik təhkiyədə təhkiyə proyeksiyasını aydınlaşdırmaq səciyyəsi daşıyır. "Şirvanlı Qəhrəman şah", "Adıgözəl və Aslan şah", "Şahzadə Qasım", "Seydi və Pəri", "Koroğlunun Şirvan səfəri" və s. dastan nümunələri janr səviyyəsi baxımından fundamental baza ilə mühüm məzmun daşıyır. Mifik-kosmoloji düşüncədən qaynaqlanan bu zənginliyin müəyyənləşdirdiyi proyeksiya rəngarəng mətn münasibətləri ilə səciyyələnir. Bütün bunlar eposun milli ənənə statusunda olan imkanlılığını və etnosu ifadə etmək gücünü müəyyənləşdirir.

**Nəticə.** Şirvan dastan mühiti əsasında aparılan təhlillər epos yaradıcılığı və milli epik ənənənin ümumi aspektləri kontekstində mükəmməl bir zənginliklə səciyyələnir. Milli-mədəni düşüncənin enerji qaynaqlarından birini təşkil edən bu mühitin folklor yaddaşı epos düncəsinin bədii-estetik sistemlərini, tarixi-mədəni fakturasını, zənginlik və özünəməxsusluq mənzərəsini aydınlaşdırmaq üçün əsaslı material verir. Məhəlli, milli, ümumi aspektlərin müəyyənliyi və onun ümumi mənzərəsi baxımından mühüm dəyər qazanır. Bütün bunlar epos yaradıcılığının geniş müstəvidə mahiyyətinin açılması üçün lokal (məhəlli) kontekstlərin də təhlilə gətirilməsini və Şirvan dastan yaradıcılığı baxımından daha sistemli, həm də tipoloji tədqiqatların aparılmasını gərəkli edir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:

1. Abbaslı İ. Azərbaycan dastanlarının yayılması və təsiri məsələləri. Bakı, “Nurlan”, 2007, s. 272.
2. Abid Ə. Azərbaycan türklərinin ədəbiyyat tarixi. Bakı, “Elm və təhsil”, 2016, 240.
3. Allahmanlı M. Folklorşünaslıq məsələləri. Bakı, “Elm və təhsil”, 2012, 284s.
4. Azərbaycan folkloru antologiyası. Şirvan folkloru (toplayıb tərtib edənlər: S.Qəniyev, H.İsmayılov). XI c., Bakı, “Səda”, 2005, 442 s.
5. Dərbənd folklor örnəkləri (toplayıb tərtib edənlər: M.Qasımlı, O.Əliyev, R.Xəlilov). 1-ci kitab, Bakı, “Elm və təhsil”, 2014, 368 s.
6. Əsgər Ə. Oğuznamə yaradıcılığı. Bakı, “ Elm və təhsil”, 2013, 340 s.
7. Kitabi-Dədə Qorqud. Bakı, “Gənclik”, 1978, 182 s.
8. Qəniyev S. Şirvan poeziya mühiti. Şirvanın 565 şairi. Bakı, “Elm və təhsil”, 2014, s. 8-14.
9. Nəbiyev A. Azərbaycan xalq ədəbiyyatı. 2 cilddə, I c., Bakı, “Apostrof”, 2014, 592 s.
10. Rəşidəddin F. Oğuznamə. Bakı, “Azərnəşr”, 1992, 72 s.
11. Жирмунский В.М. Тюркский героический эпос. М., 1974, 726 с.
12. Bekki S. Maday-Kara destanı. “Manas”, 2007, 588 s.

**Tariel Gani**

**Epic creativity and common aspects of the national epic tradition**
(based on the epics of Shirvan)
***S u m ma r y***

The epos is a form characterized for revealing the essence of the national epic tradition. One of the important indicators of this is the analysis of the folklore environment of Shirvan.This enables the public to explain historical and cultural ideas, lifestyles, and creative thinking in such sagas as as “Gahraman Shah Shirvan”, “Adigezal and Aslan Shah”, “Prince Gasym”, “Sadi and Peri”, “Arrival Koroglu to Shirvan” etc. Studying at the local level of the Ashug environment of Shirvan also increases interest in other environments. All this requires that the work of the epic in Shirvan be studied fundamentally and in a wider context.

***Тариель Гани***

**Эпичное творчество и общие аспекты национальной эпической традиции**
(на основе эпосов Ширвана)
***Резюме***

Эпос – это форма, характеризующаяся для раскрытия полной сущности национальной эпической традиции. Одним из важных показателей этого является анализ фольклорной среды Ширвана. Это дает возможность общественности объяснить исторические и культурные идеи, образ жизни, а также творческое мышление в таких сагах как «Гахраман шах Ширванский», «Адыгезял и Аслан шах», «Принц Гасым», «Сейди и Пери», «Ширванское прибытие Кероглу» и т.д. Подходы на типологической плоскости разъясняют силу мифологического охвата эпоса на функциональном уровне. Изучение на местном уровне среды Ширвана также повышает интерес к другим средам. Все это требует, чтобы творчество эпоса в Ширване было исследовано фундаментально и в более широком контексте.

## KLASSİK İRS: TARİXİ VƏ NƏZƏRİ PROBLEMLƏRİ

**Rafael Hüseynov.** Crossroad points generated by Nizami Ganjavi's literary model building in eastern and western literature ..................................5
**Cəmilə Dəmirova.** Salih ibn Abd əl-Quddus və Bəşşar ibn Burd Abbasi inkvizisiyanın ilk qurbanları kimi .............................17
**Könül Eyvazova.** Ərəb yazısının mənşəyi .....................................................27
**Şıxəli Əliyev.** İmrul-Qeysin müəlləqəsinin Xətib Təbrizi şərhi.......................40
**İlhamə Gültəkin.** Türkdilli xalqların mifologiyasında totemlər .....................56
**Xuraman Həsənova.** Fayiz Dəştistaninin dübeytilərinin mövzu xüsusiyyətləri..........................................................................................66
**Dilbər Hüseynova.** Nizami Gəncəvinin "Xəmsə"sində musiqi elementlərinin bədii ifadəsi ........................................................................75
**Tariel Qəni**. Epos yaradıcılığı və milli epik ənənənin ümumi aspektləri (Şirvan dastanları əsasında) ............................................................81
**Rəhilə Sadıqova.** Nağılın insan şüurunda uzunəsrlik hökmranlığı.................89
**Fəridə Vəliyeva.** Əhməd Fakihin həyat, yaradıcılıq və mənqibələrinə yeni bir nəzər ..........................................................................95

## YENİ VƏ MÜASİR DÖVRDƏ ƏDƏBİ-MƏDƏNİ PROSES

**Yeganə Abdullayeva.** Britaniya postmodernist romanında janr polifonizmi (A.Bayett və L.Norfolkun yaradıcılıqları əsasında) .......................................105
**Hülya Aslanova.** Əta Tərzibaşı: folklorşünaslıq fəaliyyəti və elmi-ədəbi fikirləri............................................................................................114
**Aynur Həsənova**. XX əsrin ilk onilliklərində Azərbaycanda "köhnə" və "yeni" ədəbiyyat arasında ideoloji mübarizə...........................................122
**Ziyafət Hüseynova**. Bəxtiyar Vahabzadənin qəzəl yaradıcılığında mövzu çalarlığı ...............................................................................132
**Nərgiz Qəhrəmanova.** Cəmiyyəti idarəetmə sisteminə bədii münasibətdə ənənəvilik .......................................................................138
**Sevil Məmmədəliyeva.** İntihar əbədi və ədəbi problem kimi ........................147
**Nərgiz Məmmədzadə.** Zeynal Xəlil: həyat və yaradıcılığı...........................154
**Pərvin Mürsəlova.** "Çinli kişilər" əsərində mühacir problemi və kimlik mücadiləsi.............................................................................159
**Dürdanə Səmədova.** Elmi-fantastik ədəbiyyatda postapokalipsis motivləri.......................................................................164
**Nəzmiyyə Yigitoğlu.** Ədəbiyyatda eşşək alleqoriyası satirik fikrin ifadə vasitəsi kimi............................................................................170